*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(5) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:05.05.2024*
*Kabul tarihi |Accepted:19.08.2024*
*Yayın tarihi |Published:25.10.2024*

**Alish Agamırzayev**

**https://orcid.org/0000-0001-5658-9211**
*Vice rector, Associate Professor, Doctor of Philosophy, Baku State University, Azerbaijan, alish.aghamirzayev@gmail.com*

**Atıf Künyesi | Citation Info**

Agamırzayev, A. (2024). Üçüncü Dalga Rus Mühacirət Ədəbiyyatında İmperiyaçılıq Meyilləri. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (5), 3792-3796.

# Üçüncü Dalga Rus Mühacirət Ədəbiyyatında İmperiyaçılıq Meyilləri

***Xülasə***

*Üçüncü dalğa rus mühacirət ədəbiyyatında imperiyaçılıq meyilləri və velikorus millətçiliyi elementləri bəzi yazıçı və şairlərin əsərlərində özünü göstərir. Əsasən 1960-cı illərdən başlayaraq SSRİ-dən kənarda formalaşan rus mühacir şair və yazıçılar arasında formalaşan millətçi meyillər imperiya nostalgiyası ilə təzahür edir. Məqalədə Aleksandr Soljinisın, İvan İlyin və Eduard Limonovun yaradıcılıgında bu meyillərə nəzər salınır. Onların əsərlərində imperiaçılıq meyilləri və velikorus ideyalarının əksinin məqsədlərinin müəyyənləşdirilməsinə cəhd göstərilir.*

***Açar sözlər:*** *Mühacir ədəbiyyatı, Aleksandr Soljenisın, İvan İlyin, Eduard Limonov, velikorus ideyaları*

# Imperialist Tendencies in Third Wave Russian Migration Literature

***Abstract***

*In the literature of the third wave, imperialist tendencies and elements of Velikorus nationalism manifest themselves in the works of some writers and poets. From the 1960s onwards, nationalist tendencies, mainly among Russian émigré poets and writers outside the USSR, are manifested in imperial nostalgia. The article analyses these tendencies in the works of Alexander Soljinis, Ivan Ilyin and Eduard Limonov.*

BY NC
Creative Commons Licence

*The aims of imperialist tendencies and the reflections of Velikorus ideas in their works are tried to be determined.*

***Keywords:*** *Migrant literature, Alexander Solzhenitsyn, Ivan Ilyin, Eduard Limonov, ideas of Velikorus*

## Giriş

"Rusiyanın tarixi missiyası" konsepti, başqa sözlə Rusiyada imperiyaçılıq meyilləri əsasən ideoloji və siyasi təhlillərdə, ədəbi əsərlərdə, eləcə də bəzi fəlsəfi və dini baxışlarda öz əksini tapır. Bu anlayış müxtəlif dövrlərdə fərqli filosoflar və siyasi liderlər, şair və yazıçılar tərəfindən irəli sürülüb və çox vaxt subyektiv baxışlara əsaslanıb (Agamirzayev & Seyidli, 2023). Bu "missiyanın" tərifi və kim tərəfindən müəyyən edildiyi bir neçə əsas mənbəyə bağlıdır.

Rusiyanın tarixi missiyası ilə bağlı fikirlər ilk növbədə 16-cı əsrdə formalaşmış "Üçüncü Roma" ideologiyası ilə əlaqələndirilir. Bu nəzəriyyəyə görə, İkinci Roma imoeriyasının – Bizansın süqutundan sonra Rusiya pravoslavlığın sonuncu və yeganə qoruyucusu və himayəçisi oldu (Oqlu, 2021). Bu, Rusiya dövlətinə bir dini-mədəni lider kimi xüsusi missiya yükləyirdi. Həmin dövrdən etibarən bu baxış rus siyasi elitası və pravoslav kilsəsi tərəfindən geniş rəğbətlə qəbul olunur. Üçüncü Roma nəzəriyyəsi sonrakı əsrlərdə Rusiyanın mədəni və siyasi kimliyinin əsasını təşkil etməyə başlayır və imperiyanın genişlənməsinə mənəvi əsas qazandırılması üçün geniş istifadə olunur.

19-cu əsrin sonlarına yaxın çar Rusiyası dövründə bu "tarixi missiya" daha çox siyasi və geosiyasi xarakter almaga başlayır (Agamirzayev, 2022). Rus çarları və onların ideoloqları Rusiyanın geniş Avrasiya ərazilərində sabitlik yaratmaqla özlərinin tarixi missiyasını yerinə yetirdiklərini düşünürdülər.

Sovetlər dövründə "Rusiyanın tarixi missiyası" anlayışı kommunist ideologiyasının kölgəsində müxtəlif şəkillərə salındı. Marksist-leniniçi doktrina Rusiya və onun liderliyi ilə Sovet İttifaqının dünya proletar inqilabının avanqardı olduğunu iddia edir, bu yeni "missiya" artıq pravoslavlıq və imperiya düşüncələri ilə deyil, sosialist inqilabı və dünya miqyasında kapitalizmin məğlubiyyəti bağlanırdı. Ancaq Sovet hakimiyyətinin qurulmasından sonra mühacirətə üz tuttmuş rus ziyalılarının düşüncəsində və fəaliyyətində, o cümlədən dünya ədəbiyyatı tarixində xüsusi yeri olan rus mühacirət ədəbiyyatında bu tarixi missiya özünü daha qabarıq göstərir. Birinci dalğa rus mühacirət ədəbiyyatında imperiyaçılıq meyilləri, rus kimliyinin, rus mədəniyyətinin qorunması, Rusiyanın gələcək taleyi ətrafında düşüncələr xüsusi əhəmiyyət kəsb edir. Mühacir rus şair və

yazıçılarının yaradıcılığında əsas mövzulardan biri Rusiya imperiya ənənələri, rus keçmişi, rus kimliyi, rus həyat tərzi və mədəniyyəti mövzusu idi.

Sovet İttifaqının süqutundan sonra Rusiyanın "tarixi missiyası" anlayışı yenidən açıq şəkildə işlənməyə başlandı və mədəni, dini və millətçi ideologiyalar kontekstində ortaya çıxdı. Ziyalıların çıxışlarında Rusiya özünü qərb liberalizminə və qloballaşmaya qarşı mədəni bir alternativ olaraq təqdim etməyə başladı. Bu yanaşmalarda imperiya düşüncələrinin müəyyən elementləri, xüsusən də keçmiş Sovet respublikalarına və Avrasiyada güclənmək niyyəti açıq görünür. Bu baxımdan, Rusiya yenidən özünü xüsusi bir tarixi missiya ilə – öz mədəni və geosiyasi liderliyini bərpa etməklə xarakterizə etməyə başladı.

Rusiyanın "tarixi missiyası" ideyası heç bir təşkilat, partiya və ya vahid qurum tərəfindən müəyyən edilməmişdir. Lakin müxtəlif dövrlərdə pravoslav kilsəsi, çarizm dövrünün siyasi liderləri, slavyançılıq ideoloqları, sovet ideoloqları, müasir rus millətçiləri və fərqli şəxsiyyətlər bu ideoloji konsepsiyanı irəli sürmüşdür. Nəticə etibarilə, bu missiya ideyası tarix boyu fərqli dövrlərdə müxtəlif məqsədlər üçün dəyişdirilmiş və istifadə olunmuşdur. Bu, bir çox halda Rusiyanın gücünü, milli kimliyini və beynəlxalq statusunu bəraətləndirmək üçün bir vasitə olmuşdur.

Üçüncü dalğa rus mühacirət ədəbiyyatında da Rusiyanın qüdrətinin vəsfinə, rus keçmişinin əzəmətinə həsr olunmuş əsərlər az deyil. Rus mühacirət ədəbiyyatının bu dalğasında imperiyaçılıq meyilləri daha çox Aleksandr Soljenisın yaradıcılıgında özünü büruzə verir. O, rus millətçiliyi və imperiyaçılıq meyilləri ilə bağlı baxışlarını açıq şəkildə ifadə edən yazıçılardan biri kimi tanınır. Xüsusilə onun "Qulaq Arxipelaqı" əsəri və Sovet rejiminə qarşı kəskin tənqidlərinin fonunda rus kimliyinin qorunmasına dair dərin narahatlığı yer alır. Soljenisın, Rusiyanın böyük bir dövlət olaraq ənənələrini və mədəniyyətini yaşatmasının vacibliyini vurğulayan əsərlərlə tanınır (Agamirzayev, 2022). O, bəzi əsərlərində Velikorus (Böyük Rus) ideologiyasını dəstəkləyərək Rusiyanın xüsusi bir tarixi missiyası olduğu ideyasını irəli sürür.

Digər bir mühacir yazıçı – daha sonrakı mühacirət nəsli arasında xüsusilə radikal rus millətçiliyi mövqeyində olan yazıçılardan biri kimi tanınan Eduard Limonov da öz əsərlərində sovet və postsovet Rusiyasının çöküşünü və Rusiyanın imperiya statusunun bərpasını həvəslə təsvir edir. "Bu mənəm – Ediçka" kimi əsərləri onun millətçi və radikal baxışlarını açıq şəkildə əks etdirir. A. Soljenisın, E. Limonov və digər mühacir şair və yazıçılar Rusiya imperiyasının dağılmasından sonra Rusiyanın gələcəkdə hansı istiqamətdə inkişaf etməsi və milli kimliyini necə qoruyub

saxlaması ilə bağlı dərindən düşünən müəlliflər kimi xatırlanırlar (Aghamirzayev, 2021). Onların əsərlərində velikorus millətçiliyinə yaxın mövqelər açıq şəkildə yer alır. Bu müəlliflərin rus imperiya maraqları tarixi, siyasi və mədəni kontekstdən qaynaqlanır və əsasən üç əsas mənbədən güc alır.

Tarixi irs nostalgiyası meyilləri qeyd olunmalıdır – Rus imperiya düşüncələri bu müəlliflərin keçmişə, yəni Rusiya imperiyasının mövcud olduğu və beynəlxalq arenada güclü bir qüvvə kimi tanındığı dövrlərə nostalji hissindən doğur. Bu düşüncələrdə Rusiyanın əsrlər boyu Avrasiya məkanında oynadığı mərkəzi rol, geniş torpaqların işğalı və idarə olunması, "Üçüncü Roma" ideyası önəmli yer tutur. Rusiya imperiyasının gücü və mədəniyyəti bu yazıçıların dünyagörüşündə "sivilizasiya liderliyi" kimi ifadə olunur. Müəlliflər bu tarixi irsi Rusiyanın müasir zəifliyinə qarşı qoyur və imperiya dövrlərinə qayıdış ideyası vasitəsilə Rusiyanın yenidən güclü olacağını ümid edirlər.

Rus mədəni kimliyinin müdafiəsi – Bu müəlliflərin imperiya maraqları həm də rus mədəniyyətinin və pravoslav ənənələrinin qorunmasına dərindən bağlıdır. Sovet İttifaqının süqutu və Rusiyanın daxili siyasi, iqtisadi və mədəni problemləri fonunda bu yazıçılar, Rusiyanın özünəməxsus kimliyini qloballaşma və Qərb təsirləri qarşısında itirə biləcəyindən narahatdırlar. Bu, velikorus ideologiyası ilə əlaqəli bir düşüncənin tərkib hissəsidir. Nəticədə, “Rusiya öz mədəni köklərini, pravoslav inancını və xüsusi tarixi inkişaf yolunu bərpa etməlidir” konsepsiyası irəli sürürlür (Aghamirzayev, 2021). Geosiyasi ambisiyalar – Rus imperiyaçılığı həm də geosiyasi maraqlara əsaslanır. Bu müəlliflər Rusiyanın regional və qlobal güc kimi çıxış etməsinin yalnız daxili sabitlik və mədəni kimliklə deyil, həm də xarici güclə əlaqəli olduğunu düşünürlər. Bu baxımdan, imperiya genişlənməsi və böyük sərhədlərin bərpası perspektiv məqsəd kimi görünür.

## Nəticə

Göründüyü kimi, rus-muhacir ədəbiyyatı ilə əlaqədar müxtəlif tədqiqatçılar və müxtəlif zaman kəsiyində fərqli yanaşmalar sərgiləmişdilər. Ədəbiyyatın anlaşması və fəlsəfəsi baxımışdan müxtəlif sosial-siyasi mərhələdə fərqli yanaşmaların mövcud olması özlüyündə bu ədəbi əsərlərin bir mənalə qiymətləndirilməməsini səciyyələndirir (Kazimi, Oqlu, & Qizi, 2022). Rus mühacir ədəbiyyatında bir sıra müəlliflərin ədəbi yaradıcılıgı ölkə daxilində, bir sıra müəlliflərin əsərləri xarici ölkələrdə rəgbət qazanmışdır. Eduard Limonov kimi yazıçılar Rusiyanın öz imperialist sərhədlərini bərpa etməsini, keçmiş Sovet respublikalarının yenidən nəzarətə alınmasını və Avrasiyanın geniş ərazilərində siyasi hökmranlığın yaradılmasını məqsəd olaraq görür. Bu

müəlliflərin baxışlarında Rusiya (istərsə çar imperiyası dövründə, istərsədə sovetlər dövründə) həm daxili, həm də xarici təhlükələrə qarşı güclü bir siyasi və hərbi aktor kimi təqdim olunur. “Velikorus” ideyası bu kontekstdə Rusiyanın Avropa və Asiya arasında güc balansını yenidən öz lehinə dəyişməsinə xidmət etməlidir düşüncəsindədirlər. Bu müəlliflərin əsərlərində Rusiyanın xüsusi və əhəmiyyətli bir tarixi güc kimi yenidən dirçəlməsi üçün çağırışlar qabarıq görünməkdədir. Bu müəlliflər üçün Rusiya böyük güc olaraq qlobal arenada öz xüsusi rolunu oynamalıdır. Rusiyanın pravoslav mədəniyyətini və dəyərlərini qorumalı, Qərbin təsirlərinə qarşı mübarizə aparmlı, Rusiyanın itirdiyi torpaqları və gücləri geri qaytararaq, imperiya sərhədlərini yenidən bərpa etməlidir.

## Kaynaklar

Agamirzayev, A., & Seyidli, N. (2023). The Problem of Pr and Image Competence in the Training of Specialists in Information and Document Management (new challenges to the training of industry specialists). *Akademik Tarih ve Düşünce Dergisi*, *10*(4), 1145-1157.

Oqlu, K. P. F. (2021). Conflict of Relevance and Reliability of İnformation and the Global Network. *Trends in Humanities and Social Sciences*, *1*(1), 1-2.

Agamirzayev, A. (2022). The Place Of Russian Migration Literature In The Teaching Of" World Literature"-Ideological And Political Directions Of Migration Literature And" World Literature"-. Akademik Tarih ve Düşünce Dergisi, 9(4), 1818-1829.

Agamirzayev, A. (2022). The Place of Russian Migration Literature in the Teaching of "World Literature" Ideological And Political Directions Of Migration Literature And" World Literature. *Akademik Tarih ve Düşünce Dergisi*, *9* (4), 1818-1829.

Aghamirzayev, A. C. (2021). Historical and cultural formation, evolution and ideological direction of Russian emigration literature. *Technium Soc. Sci. J.*, *23*, 755.

Aghamirzayev, A. C. (2021). Bright Image" of the first wave Russian emigration literature-Ivan Bunin. *Technium Soc. Sci. J.*, *26*, 829.

Kazimi, P. F. O., Oqlu, I. I. A., & Qizi, Y. G. Y. (2022). Philosophical view on information theory (The path from the divine to the digital world). *Technium Soc. Sci. J.*, *32*, 724.